# Kredo

Müstəqil ictimaisiyasi, publisistik qəzet №02 (1258) 16 yanvar 2025-ci il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır


# ŞƏDDAT CƏFƏROV - 75

# SÖZ QƏLBİMƏ HAKİMDİR



## Mən də sözün diliyəm

Görkəmli naşir, tanınmış yazıçı-publisist Şəddat Cəfərovun həyat yolu elə ötən əsrin 40-cı ilindən bəri Azərbaycanın yoludur. İkinci Cahan savaşında Azərbaycan xalqının ağrı acıları elə onun tale yolundan da keçib. Müharibənin yaraları vətənin ağrılarına dönüb, o dövrün uşaqlığını yaşamış Şəddat Muğdat oğlunun düşüncəsində özünə əbədi yer alıb.

Şəddat müəllimin cəmiyyətə deyəcəyi sözü tükənmir. Nə yaş, nə də ömrün artıq xatirələrə dönmüş çağları onun yaddaşını silə bilmir. Hər hansı bir mövzuda sözü düşüncəsindən bulaq kimi çağlayıb gəlir.

Hər bir yazıçının, hər bir söz adamının birinci missiyası elə öz dövrünə münasibətdir. Bu mənada onun yazdıqlarında cəmiyyətin ağrı-acıları da özünə yer alır. Qarabağ torpaqlarının az qala bir qərinəlik zaman ərzində işğalda olması yazılarının rəngini kifayət qədər qayğıya bürümüşdü. 44 günlük savaşın qəhrəmanlarını sevgi ilə tərənnüm edən qeydləri gələcək nəsillərin vətənə sevgi ruhunda böyüməsi üçün kifayət qədər təsirli mənbə olacaq.

Şəddat müəllim bu gün də uğurla yazıb-yaradır. Onun son illərdəki ədəbi-publisistik qeydləri "Əzəldən bağlıyam sözə" adlı beş cildliyinə toplanıb. Bu beş cildlik ədəbi mühitimiz üçün çox dəyərli töhfədir. Ayrı-ayrı sənətkarlar haqqında monoqrafik qeydləri də ədəbi xəzinəmizin mənəvi yaddaşında əbədi qalacaq. Sabir Rüstəmxanlı, Qafar Cəfərli, digər sənətkarlar haqqında da kitabları oxucular tərəfindən maraqla qarşılanıb. Onun tədqiqatlarında professor Qəzənfər Paşayevin ədəbi fəaliyyəti də kifayət qədər yer alıb. Bu cür yaradıcılıq faktları çoxdur. Zənnimcə, bütün bunlar onun mənəvi kimliyinin əsas göstəriciləridir.

Şəddat müəllim tarix adamıdır, tarixi ədəbi düşüncəsindən keçirərək yazan sənətkardır. Onun şəxsi arxivində Azərbaycanın 50-ci illərdən bəri, demək olar ki, bütün sənətkarlarının avtoqraflı qeydləri var. Ayrı-ayrı imzalar onun zəngin mənəvi aləminə, humanist təbiətinə sözün həqiqi mənasında sevgi ilə yazılmış, sözə çevrilmiş duyğuları ifadə edir. Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Hüseyn Arifin, Məmməd Arazın, Məmməd Aslanın, Şahmar Əkbərzadənin, Zəlimxan Yaqubun, onlarca digər - bu gün Azərbaycan ədəbiyyatının klassiki olan sənətkarların yadigar sözləri, əgər belə demək mümkünsə, elə həm də onun tərcümeyi-halıdır.

Mətbəədə sinkoqraf kimi fəaliyyətə başlayıb "Azərbaycan" nəşriyyatında direktorluğa qədər yüksəlmiş sənətkarın həyatında kitab demək olar ki, onun ömrünü simvolizə edir. Kitab çapı mədəniyyətimizə gətirdiyi töhfələr çoxdur. Şəddat Cəfərovun 85 illik yubileyini ədəbi ictimaiyyətimiz təntənə ilə qeyd etdi. Milli Azərbaycan Tarixi Muzeyinin fondunu Şəddat müəllimin kolleksiyası daha da zənginləşdirdi.

Şəddat müəllim özü zəngin adamdır. Ömür yolu ilə sanki gələcək nəsillərə yaşamaq düsturunun örnəyini təqdim edir.

Yaşamaq, özü də mənalı yaşamaq böyük qəhrəmanlıqdır.

**Şəddat müəllim sözün dili olaraq bu gün cəmiyyətlə səmimi bir ünsiyyət qurub. Onun insanlara sevgisi tükənməzdir. Elə onun sevilməyinin də sirri bundadır. Bəli, sevməsən, sevilməzsən.**

***Ə.R.XƏLƏFLİ***
***15.01.2025***